# NAFTALAN: YÜKSƏK NƏTİCƏLƏR BÖYÜK UĞURLARIN BAŞLANĞICIDIR





**Dünya şöhrətli möcüzəli Naftalan şəhərində davamlı inkişaf uğurla təmin edilir. Dövlət başçısı cənab İlham Əliyevin diqqət və qayğısı, şəhər icra hakimiyyətinin apardığı məqsədyönlü tədbirlər nəticəsində Naftalan şanlı tarixinə qayıtmış, sözün əsl mənasında cənnət bir diyara çevrilmişdir. Burada vətəndaşların şad-firavan yaşaması stimullaşmışdır.**

Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Novruzov, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin sektor müdiri Vəfadar Bağırov və dövlət rəsmiləri, əsrarəngiz təbiətə və füsunkar gözəlliyə malik Heydər Əliyev parkına gələrək, türk dünyasının fenomeni, əbədiyaşar ulu öndərin əzəmətli abidəsi önünə tər güllər qoyaraq dahi şəxsiyyəti bir daha böyük hörmət və ehtiramla yad etdilər. Sonra Heydər Əliyev Mərkəzinin binasında şəhər icra hakimiyyətinin, YAP şəhər Təşkilatının nümayəndələri, hüquq-mühafizə orqanlarının, təhsil, səhiyyə, mədəniyyət, xidmət sahələrinin rəhbərlərinin və geniş ictimaiyyətin iştirakı ilə 2019-cu ilin sosial-iqtisadi inkişafının yekunları və 2020-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş geniş Şura iclasını giriş sözü ilə açan **Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Novruzov** iştirakçıları salamladı. O, respublikada gedən davamlı inkişafdan, şəhərdə aparılan abadlıq-quruculuq işlərindən və yeni layihələrdən ətraflı danışaraq, qeyd etdi ki, praqmatik dövlət başçısı ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən həyata keçirilən uğurlu iqtisadi islahatlar kurort şəhəri Naftalanın da bütün sahələrdə inkişafına müsbət təsir göstərib.

Naftalan kurort şəhərinin hərtərəfli inkişafında əldə olunan nailiyyətlər möhtərəm Prezident cənab İlham Əliyevin adı ilə bağlıdır. Artıq sözün əsl mənasında, Naftalan beynəlxalq və dünyəvi turizm mərkəzinə çevrilmişdir. Bu gün Naftalanda turizmin inkişafı üçün maksimum şərait yaradılıb. Hazırda şəhərdə geniş müasir səviyyəli sanatoriyaların tikintisi davam etdirilir. Statistik mənbələrə əsaslanaraq, 2019-cu ildə kurort şəhərinə gələn turistlərin sayı əvvəlki illərlə müqayisədə artaraq 40 min nəfərədək çatdığını müşahidə edirik. Onlardan 40 faizi xarici turistlərin payına düşür. Bu statistika müstəqillik illərində Naftalanda qeydə alınan yüksək göstərici və müvəffəqiyyətdir.

Çıxışının sonunda şəhər rəhbəri qədirbilən naftalanlılar adından, şəhərə daimi göstərilən sonsuz diqqət və qayğıya görə ölkə Prezidenti cənab İlham Əliyevə dərin minnətdarlığını ifadə edərək, tam əminliklə bildirdi ki, ölkə başçısının bu kurort şəhəri ilə bağlı fikirlərinin və tapşırıqlarının həyata keçirilməsi üçün bütün imkanlardan maksimum istifadə edilərək, qarşıya qoyulan ümdə vəzifələr layiqincə yerinə yetiriləcəkdir.

Tədbirdə Prezident Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin sektor müdiri Vəfadar Bağırov çıxış edərək möhtərəm Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda gedən davamlı inkişafdan, infrastrukturların yeniləşməsindən və irimiqyaslı layihələrin gerçəkləşməsindən, ölkəmizdə ötən 2019-cu ildə görülmüş işlər və 2020-ci ildə qarşıya qoyulan hədəflər barədə ətraflı məlumat verib, həmçinin Naftalanda turizmin inkişafı sahəsində, həm də ümumilikdə şəhərdə görülmüş işləri, həyata keçirilən layihələri təqdirəlayiq hesab edərək, birmənalı bildirdi ki, bəli, praqmatik siyasi kurs çoxşaxəli inkişafın dinamizmini qoruyur və uğurlu inteqrasiyanı təmin edir.

Hesabat məruzəsi ətrafında Naftalan şəhər Maliyyə şöbəsinin rəisi Saleh Tağıyev, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun Naftalan şəhər şöbəsinin müdir əvəzi Eyvaz Nəcəfov və sahibkar İlqar Hüseynov çıxış edərək, respublikada gedən davamlı inkişafdan, Naftalan şəhərində aparılan geniş abadlıq-quruculuq işlərindən, infrastrukturun yeniləşməsindən, vətəndaşların sosial və məişət şəraitinin yaxşılaşmasından, maddi rifah halının yüksəlişindən söhbət açaraq, ölkə Prezidentinin şəhərə göstərdiyi sonsuz diqqət, qayğıya görə dərin minnətdarlıqlarını ifadə etdilər.

Sonda yığıncaq iştirakçıları adından Azərbaycan Respublikası Prezidentinə müraciət qəbul olunub.

**Zabit XƏLİLOV,**
**“Respublika”.**

Respublika.- 2020.- 12 mart.- S.6.